**“Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası”nın təsdiq edilməsi və “Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 2 iyun tarixli 402 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. “Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165 (Cild I); 2025, № 9, maddə 856) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambuladan “1.3-cü,” və “, 1.13-cü” sözləri çıxarılsın;

2.2. 1-ci hissədən “Fitosanitar sertifikatının nümunəvi forması”,” və “Fitosanitar sertifikatının verilməsi üçün tələb olunan sənədlərin Siyahısı”,” sözləri çıxarılsın.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 4 dekabr 2025-ci il
№ 373

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2025-ci il 4 dekabr tarixli 373 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi**

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.13-cü, 7.1.6-1-ci, 14-cü maddələrinə uyğun olaraq hazırlanmışdır və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən bitki və bitkiçilik məhsullarına ölkə daxilində daşımalar zamanı daxili karantin sertifikatının, həmin məhsulların ixracı (təkrar ixracı) zamanı fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi qaydalarını müəyyən edir.

1.2. Bu Qaydaya uyğun olaraq bitki və bitkiçilik məhsullarının ixracı (təkrar ixracı) zamanı fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi fiziki və hüquqi şəxslərin vəsaiti hesabına aparılır.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **zərərsizləşdirmə** – zərərli orqanizmlərin məhv edilməsi, inaktivləşdirilməsi, kənarlaşdırılması, təmizlənməsi və ya sterilləşdirilməsi və onların hissələrinin məhv edilməsi üzrə həyata keçirilən proses;

2.1.2. **fitosanitar karantin baxışı** – karantin nəzarətində olan materiallarda zərərli orqanizmlərin mövcudluğunu, yaxud fitosanitar norma və qaydalara əməl olunmasını müəyyən etmək məqsədilə aparılan vizual yoxlama;

2.1.3. **yük** – ticarət və ya başqa məqsədlə bir ərazidən digər əraziyə daşınan, bitki və bitkiçilik məhsulları;

2.1.4. **yük partiyası** – tərkibi, mənşəyi və digər əlamətlərinin eyniliyi ilə seçilən, identifikasiya olunmuş yükün bir hissəsini təşkil edən mal vahidlərinin məcmusu.

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının digər müvafiq normativ hüquqi aktlarında nəzərdə tutulan mənaları ifadə edir.

## 3. Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının verilməsi

3.1. Yükə Azərbaycan Respublikasının ərazisində bir ərazidən başqa əraziyə daşınan zaman bu Qaydanın 3.2-ci bəndi nəzərə alınmaqla daxili karantin sertifikatı verilir.

3.2. Yük aşağıdakı hallarda daxili karantin sertifikatı ilə müşayiət olunmalıdır:

3.2.1. karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu təsdiq edilmiş ərazidən daşındıqda;

3.2.2. ixracı nəzərdə tutulan yüklər ölkə daxilində bir ərazidən digər əraziyə daşındıqda (yük boşaldılaraq qablaşdırıldığı, ixrac partiyalarının formalaşdırıldığı, digər nəqliyyat vasitəsinə yükləndiyi hallarda).

3.3. Daxili karantin sertifikatının alınması üçün müraciət edilməsi və sertifikatın alınması "Elektron Hökumət" İnformasiya Sistemi (bundan sonra – EHİS) üzərindən həyata keçirilir. Daxili karantin sertifikatı "Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi" İnformasiya Sistemində (bundan sonra – AQTİS) formalaşdırılır və EHİS-ə ötürülür.

3.4. Daxili karantin sertifikatının alınması üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada tərtib edilmiş və rəsmiləşdirilmiş ərizə ilə elektron qaydada EHİS-in xidmət kanalları üzərindən Agentliyə müraciət olunmalıdır. Ərizə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və daxili karantin sertifikatının verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə Agentlik "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə uyğun olaraq tədbirlər həyata keçirir.

3.5. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:

3.5.1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar;

3.5.2. ərizəçinin elektron poçt ünvanı və telefon nömrəsi (olduğu halda), VÖEN-i, bitki mənşəli qida məhsullarına münasibətdə obyektin qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi;

3.5.3. yükün daşınacağı nəqliyyat vasitəsinin növü və dövlət qeydiyyat nişanı (o cümlədən qoşqunun);

3.5.4. yükün təyinatı (daxili daşınma və ya ixrac);

3.5.5. yükün yüklənmə ünvanı;

3.5.6. yükün qəbul edilmə ünvanı;

3.5.7. yük haqqında məlumatlar:

3.5.7.1. yükün adı;

3.5.7.2. yük istehsalçısının adı və ünvanı (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, VÖEN-i, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar);

3.5.7.3. çəkisi (xalis və qablaşdırma) və ya miqdarı;

3.5.7.4. qablaşdırmanın növü və sayı.

3.6. Daxili karantin sertifikatının verilməsi üçün Agentliyin müvafiq regional bölməsi tərəfindən yükə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"na uyğun olaraq fitosanitar karantin baxışı keçirilir və fitosanitar norma və qaydalarda müəyyən edilmiş risk əsaslı yanaşma əsasında, habelə həmin norma və qaydalarda təsbit edilmiş miqdar və metoda uyğun olaraq yükdən nümunələr götürülərək "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında sınağı həyata keçirilir. Həmin nümunələrin tədqiqi (sınağı) yalnız ərizəçi tərəfindən ekspertiza üçün "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun 34.6-cı maddəsinə uyğun olaraq, müvafiq xidmət haqqı ödənildikdən sonra təmin edilir.

3.7. Bu Qaydanın 3.6-cı bəndində göstərilən metodların tətbiqi mümkün olmadıqda və ya belə texniki normativ hüquqi aktlar mövcud olmadıqda, Azərbaycan Respublikasının digər oxşar sahələrə aid texniki normativ hüquqi aktlarında nəzərdə tutulmuş yükdən nümunələrin götürülməsi metodları tətbiq edilir. Əgər bu metodların da tətbiqi mümkün olmazsa və ya belə texniki normativ hüquqi aktlar mövcud olmazsa, Azərbaycan Respublikasının üzv olduğu müvafiq beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş metodlardan istifadə olunur.

3.8. Bu Qaydanın 3.6-cı bəndi nəzərə alınmaqla, nümunələrin laboratoriyalar tərəfindən 7 (yeddi) iş günü ərzində tədqiqi (sınağı) aparılaraq nəticəsi Agentliyə təqdim edilir. Laboratoriyaların əsaslandırılmış müraciəti ilə həmin müddət 20 (iyirmi) gündən çox olmayan müddətə uzadıla bilər və qeyd olunan müddət daxili karantin sertifikatının verilməsi üçün bu Qaydanın 3.9-cu bəndində göstərilən müddətə daxil edilmir.

3.9. Daxili karantin sertifikatının verilməsinə görə dövlət rüsumu tutulmur. Daxili karantin sertifikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, ləğv edilməsi qaydaları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və sertifikat həmin Qanunla müəyyən olunmuş qaydada bu Qaydanın 3.8-ci bəndi nəzərə alınmaqla 7 (yeddi) iş günündən gec olmayaraq verilir.

3.10. Daxili karantin sertifikatı Azərbaycan dilində, habelə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən nümunəvi forma əsasında tərtib edilir və rəsmiləşdirilir. Sertifikat ərizəçinin EHİS-dəki elektron kabinetində yerləşdirilir.

3.11. Daxili karantin sertifikatının qüvvədə olma müddəti yükün yararlılıq müddətindən çox olmamaqla 14 (on dörd) gündür.

3.12. Daxili karantin sertifikatının verilməsindən aşağıdakı hallarda imtina edilir:

3.12.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda;

3.12.2. karantin tətbiq edilən zərərli orqanizmlər aşkarlandıqda.

3.13. Bu Qaydanın 3.12-ci bəndində nəzərdə tutulan uyğunsuzluqlar aşkarlandıqda Agentlik tərəfindən ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq əsaslandırılmaqla yükə daxili karantin sertifikatının verilməsindən imtina edilməsi haqqında inzibati akt qəbul edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində subyektin (ərizəçinin) EHİS-dəki elektron kabinetində yerləşdirilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

## 4. Bitki və bitkiçilik məhsullarına fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi

4.1. Azərbaycan Respublikasından ixrac (təkrar ixrac) edilən yüklər idxal olunan ölkələr tərəfindən tələb edildiyi halda həmin yüklərin, "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 12 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartın tələblərinə uyğunluğunu təmin etmək məqsədilə fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatlaşdırılması aparılır.

4.2. İxracı nəzərdə tutulan yüklərə fitosanitar sertifikatlar aşağıdakı tələblərə əməl olunduğu hallarda verilir:

4.2.1. fitosanitar sertifikatın verilməsi üçün müraciət edildikdə və dövlət rüsumu ödənildikdə;

4.2.2. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2-ci maddəsində nəzərdə tutulan sənədlər təqdim olunduqda;

4.2.3. fitosanitar sertifikat verilməsi nəzərdə tutulan yüklər barəsində fitosanitar karantin baxışı həyata keçirildikdə;

4.2.4. barəsində zərərsizləşdirmə tədbiri nəzərdə tutulan yükə dair karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi aktı təqdim olunduqda;

4.2.5. göndərilən yüklər "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 12 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartın tələblərinə cavab verdikdə.

4.3. Təkrar ixrac fitosanitar sertifikatı Azərbaycan Respublikası ərazisinə gətirilən yüklər dövriyyədə olduqda, hissələrə bölündükdə, digər yüklərlə birləşdirildikdə və ya yenidən qablaşdırıldıqda, bu Qaydanın 4.4-cü bəndində nəzərdə tutulan hallarda verilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"na uyğun olaraq həmin yüklərə dair tədbirlər həyata keçirilir.

4.4. Təkrar ixrac fitosanitar sertifikatları aşağıdakı hallarda verilir:

4.4.1. təkrar ixracı nəzərdə tutulan yüklər ölkəyə idxal edildikdə;

4.4.2. təkrar ixracı nəzərdə tutulan yüklər idxal zamanı ixracatçı ölkə tərəfindən verilən fitosanitar sertifikatın əsli və ya təsdiq edilmiş surəti ilə müşayiət edildikdə;

4.4.3. təkrar ixracı nəzərdə tutulan yüklər ölkədə becərilmədikdə və yaxud təyinatının dəyişdirilməsi məqsədilə yenidən emal edilmədikdə;

4.4.4. ixrac ediləcək yüklər təyinat ölkəsinin tələblərində qeyd olunan karantin tətbiq edilən zərərli orqanizmlərlə sirayətlənmədikdə.

4.5. İxrac ediləcək yüklər "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 12 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartın və idxalatçı ölkənin tələblərinə cavab verdikdə yük partiyasına ixrac və ya təkrar ixrac fitosanitar sertifikatı verilir.

4.6. Azərbaycan Respublikasının ərazisindən ixrac ediləcək yükün daşınması üçün istifadə olunan taxta qablaşdırma materialları “Bitki mühafizəsi haqqında” Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 15 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standarta (“Beynəlxalq ticarətdə taxta qablaşdırma materiallarının tənzimlənməsi”) uyğun olmalı, həmin standartın 1 nömrəli əlavəsində qeyd edilmiş işlənmələrdən biri tətbiq edilməli və 2 nömrəli əlavəsində qeyd edilmiş şəkildə markalanmış olmalıdır.

4.7. Bu Qaydanın 4.6-cı bəndində qeyd edilmiş tələblər aşağıdakılara şamil edilmir:

4.7.1. qalınlığı 6 millimetr və daha az olan ağacdan hazırlanmış taxta qablaşdırma materialları;

4.7.2. spirtli içkilər üçün nəzərdə tutulmuş və termiki emaldan keçmiş çəlləklər, hədiyyə üçün qutular, taxta yonqar və taxta yun, yük maşınlarına və konteynerlərə qalıcı (daimi) olaraq bərkidilən taxta komponentləri, hazırlanması zamanı kimyəvi maddələrdən və digər emal üsullarından istifadə edilməklə hazırlanmış faner, DSP, DVP və bu kimi materiallar.

4.8. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının alınması üçün müraciət edilməsi və elektron sənəd formasında olan sertifikatın alınması EHİS üzərindən həyata keçirilir. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikat AQTİS-də formalaşdırılır və EHİS-ə ötürülür.

4.9. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının alınması üçün “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.1-ci maddəsinə uyğun olaraq “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada tərtib edilmiş və rəsmiləşdirilmiş ərizə ilə elektron qaydada EHİS-in xidmət kanalları üzərindən Agentliyə müraciət olunmalıdır. Ərizə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsindən imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə Agentlik “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə uyğun olaraq tədbirlər həyata keçirir.

4.10. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:

4.10.1. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar;

4.10.2. ərizəçinin elektron poçt ünvanı və telefon nömrəsi (olduğu halda), VÖEN-i, bitki mənşəli qida məhsullarına münasibətdə obyektin qeydiyyatına və ya təsdiqinə dair Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın nömrəsi;

4.10.3. yükün istehsalçısının adı və ünvanı (hüquqi şəxsin, xarici hüquqi şəxsin filialının və nümayəndəliyinin adı və hüquqi ünvanı, fərdi sahibkarın soyadı, adı, atasının adı və fəaliyyət ünvanı);

4.10.4. yükün mənşə və təyinat ölkəsi;

4.10.5. yükün təyinat ölkəsində idxalatçısının (qəbul edənin) adı və ünvanı;

4.10.6. yükün daşınacağı nəqliyyat vasitəsinin növü və dövlət qeydiyyat nişanı (o cümlədən qoşqunun);

4.10.7. dövlət sərhədindən buraxılış məntəqəsinin adı;

4.10.8. yük haqqında məlumatlar:

4.10.8.1.yükün adı;

4.10.8.2. çəkisi (xalis və qablaşdırma) və ya miqdarı;

4.10.8.3. qablaşdırmanın növü və sayı.

4.11. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

4.11.1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər;

4.11.2. fitosanitar nəzarəti sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş hallarda və ya idxalatçı ölkənin tələbləri əsasında barəsində zərərsizləşdirmə tədbiri nəzərdə tutulan yükə dair karantin nəzarətində olan materialların zərərsizləşdirilməsinə dair akt;

4.11.3. bu Qaydanın 3.2.2-ci yarımbəndində nəzərdə tutulmuş yüklərə münasibətdə daxili karantin sertifikatı;

4.11.4. təkrar ixracı nəzərdə tutulan yükə münasibətdə həmin yükün ölkəyə idxalı zamanı ixracatçı (mənşə) ölkənin fitosanitar sertifikatı;

4.11.5. fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi zamanı karantin nəzarətində olan materiallara dair digər sənədlər (əkin və səpin materiallarına münasibətdə vegetasiya dövründə aparılmış fitosanitar nəzarət tədbirlərinə dair aktlar) tələb oluna bilər.

4.12. Daxili karantin sertifikatı ilə təmin edilmiş yük boşaldılaraq qablaşdırıldığı, ixrac partiyalarının formalaşdırıldığı və digər nəqliyyat vasitəsinə yükləndiyi zaman ərizəçi daxili karantin sertifikatını dövlət sərhədinin buraxılış məntəqəsinə yaxın ərazidə yerləşən Agentliyin regional bölməsinə və fitosanitar nəzarəti məntəqəsinə (olduğu halda) təqdim etməlidir. Dövlət fitosanitar müfəttişi vizual baxış əsasında həmin yüklərin tərkibinin daxili karantin sertifikatında göstərilən məlumatlarla eyniliyinin və

uyğunluğunun yoxlanılmasını həyata keçirir. Ərizəçi tərəfindən təqdim olunmuş daxili karantin sertifikatı əsasında yükə fitosanitar sertifikatı verilir.

4.13. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi üçün Agentlik tərəfindən yüklərə bu Qaydanın 4.12-ci bəndinin tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"na uyğun olaraq fitosanitar karantin baxışı keçirilir və fitosanitar norma və qaydalarda müəyyən edilmiş risk əsaslı yanaşma əsasında, habelə həmin norma və qaydalarda təsbit edilmiş miqdarda və metoda uyğun olaraq yükdən nümunələr götürülərək "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq akkreditasiyadan keçmiş sınaq laboratoriyalarında sınağı həyata keçirilir. Nümunələrin tədqiqi (sınağı) yalnız ərizəçi tərəfindən ekspertiza üçün "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununun 34.6-cı maddəsinə uyğun olaraq, müvafiq xidmət haqqı ödənildikdən sonra təmin edilir.

4.14. Bu Qaydanın 4.13-cü bəndində göstərilən metodların tətbiqi mümkün olmadıqda və ya belə texniki normativ hüquqi aktlar mövcud olmadıqda, Azərbaycan Respublikasının digər oxşar sahələrə aid texniki normativ hüquqi aktlarında nəzərdə tutulmuş məhsul nümunələrinin götürülməsi metodları tətbiq edilir. Əgər bu metodların da tətbiqi mümkün olmazsa və ya belə texniki normativ hüquqi aktlar mövcud olmazsa, Azərbaycan Respublikasının üzv olduğu müvafiq beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş metodlardan istifadə olunur.

4.15. Bu Qaydanın 4.13-ci bəndi nəzərə alınmaqla, məhsulların laboratoriyalar tərəfindən 7 (yeddi) iş günü ərzində tədqiqi (sınağı) aparılaraq nəticəsi Agentliyə təqdim edilir. Laboratoriyaların əsaslandırılmış müraciəti ilə həmin müddət 20 (iyirmi) gündən çox olmayan müddətə uzadıla bilər və qeyd olunan müddət fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi ilə bağlı 4.16-cı bənddə göstərilən müddətə daxil edilmir.

4.16. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət rüsumu tutulur. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının və onun dublikatının verilməsi, yenidən rəsmiləşdirilməsi, ləğv edilməsi qaydaları "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir və sertifikat həmin Qanunla müəyyən olunmuş qaydada bu Qaydanın 4.15-ci bəndi nəzərə alınmaqla 7 (yeddi) iş günündən gec olmayaraq verilir.

4.17. Bu Qaydanın 4.16-cı bəndinin tələbləri nəzərə alınmaqla hazırlanmış fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı ərizəçiyə kağız və "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada tərtib edilmiş və rəsmiləşdirilmiş elektron sənəd formasında verilir. Kağız daşıyıcıda tərtib olunmuş fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının bir nüsxəsi ərizəçiyə və ya onun səlahiyyətli nümayəndəsinə sifarişli poçt göndərişi vasitəsilə göndərilir, digər nüsxəsi isə Agentliyin regional bölmələrində ciddi hesabat sənədi kimi ən azı 1(bir) il müddətdə saxlanılır. Elektron sənəd formasındakı fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı ərizəçinin EHİS-dəki elektron kabinetində yerləşdirilir. Həmin sertifikat və onun barəsindəki məlumatlar real vaxt rejimində gömrük orqanına göndərilir.

4.18. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının qüvvədə olma müddəti 14 (on dörd) gündür (yükün yararlılıq müddətindən çox olmamaqla) və bu müddət ərzində yük ixrac edilməzsə, sertifikat qüvvədən düşmüş sayılır.

4.19. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatın verilməsindən aşağıdakı hallarda imtina edilir:

4.19.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda;

4.19.2. ərizəçinin təqdim etdiyi sənədlərdə yanlış və ya təhrif olunmuş məlumatlar olduqda;

4.19.3. fitosanitar karantin baxışı zamanı yük partiyası idxalatçı ölkənin mövcud fitosanitar tələblərinə cavab vermədikdə;

4.19.4. bitki və bitkiçilik məhsullarında aşkar edilmiş uyğunsuzluqlar aradan qaldırılmadıqda.

4.20. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsindən imtina edilməsinə səbəb olan bu Qaydanın 4.19.1-4.19.2-ci yarımbəndlərində nəzərdə tutulan uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra yük partiyasına sertifikat verilir. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatın verilməsindən imtina edilməsi bu barədə sertifikatın verilməsi üçün təkrar müraciət edilməsini istisna etmir.

4.21. Bu Qaydanın 4.19.3-cü yarımbəndində nəzərdə tutulan uyğunsuzluq aşkar edilmiş yük partiyası zərərsizləşdirildikdə təqdim olunmuş zərərsizləşdirmə aktı əsasında yükə yenidən fitosanitar karantin baxışı keçirilir və sertifikat verilir.

4.22. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsindən imtina edildikdə Agentlik tərəfindən ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq, müvafiq inzibati akt qəbul edilir. Həmin inzibati akt qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində ərizəçinin EHİS-dəki elektron kabinetində yerləşdirilir

və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.23. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələrək təsdiq edilmiş 12 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartın tələbləri əsasında dövlət dilində və ya BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) rəsmi dillərindən birində (ingilis dilinə üstünlük verilir) bu Qaydanın 2 nömrəli əlavəsində göstərilən nümunəvi forma əsasında hazırlanır.

4.24. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatında tələb olunan məlumatların qarşısının boş saxlanılmasına yol verilmir. Məlumatlar olmadıqda isə sətrin üstündən xətt çəkilir və ya "X" simvolundan istifadə edilir.

4.25. Fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatında təsdiq edilməmiş dəyişiklik və düzəlişlərin aparılmasına yol verilmir.

"Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası"na
**1 nömrəli əlavə**

<table>
<tr><td colspan="2"></td><td colspan="4">AZƏRBAYCAN RESPUBLİKASI QİDATƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN REGİONAL BÖLMƏSİ DAXİLİ KARANTİN SERTİFİKATI №</td></tr>
<tr><td colspan="3">1. Fiziki və hüquqi şəxsin adı,soyadı və ünvanı:</td><td colspan="3">2. Fiziki və hüquqi şəxsin VÖEN-i:</td></tr>
<tr><td colspan="3">3. Nəqliyyat vasitəsinin növü və dövlət qeydiyyat nişanının (o cümlədən qoşqunun) nömrəsi:</td><td colspan="3">4. Yükün təyinatı (daxili daşınma və ya ixrac):</td></tr>
<tr><td colspan="6">5. Yükün yüklənmə ünvanı:</td></tr>
<tr><td colspan="6">6. Yükün qəbul edilmə ünvanı:</td></tr>
<tr><td colspan="6">7. Yük haqqında məlumatlar:</td></tr>
<tr><td>Məhsulun adı</td><td>İstehsalçının adı, ünvanı</td><td>İstehsalçının VÖEN-i</td><td>İstehsal ünvanı</td><td>Məhsulun çəkisi/miqdarı (xalis və qablaşdırma)</td><td>Qablaşdırmanın növü və sayı (ədədlə)</td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="6">Bu Sertifikatla təsdiq edilir ki, yük, tara, qablaşdırma materialı və nəqliyyat vasitəsi bütün növ karantin tətbiq edilən zərərli orqanizmlərdən azaddır.</td></tr>
<tr><td colspan="2">Dövlət fitosanitar müfəttişinin adı və soyadı</td><td>İmza:</td><td>Sənədin verilmə tarixi</td><td colspan="2"></td></tr>
</table>

"Bitki və bitkiçilik məhsullarına daxili karantin sertifikatının, həmin məhsulların ixracına (təkrar ixracına) fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatının verilməsi Qaydası"na
**2 nömrəli əlavə**

**FİTOSANİTAR (TƏKRAR İXRAC FİTOSANİTAR) SERTİFİKATININ NÜMUNƏVİ FORMASI**
№ ____________________

Bitki karantini və mühafizəsi təşkilatı
__________________________________________
Bitki karantini və mühafizəsi təşkilatına (təşkilatlarına)
_________________________

## I. Yükün təsviri

İxracatçının adı və ünvanı
____________________________________________________
Yükü qəbul edənin adı və ünvanı
______________________________________________
Qablaşdırılan materialların təsviri və sayı
______________________________________
Nişanlama (markalama) ______________________________________________________
Mənşəyi ____________________________________________________________________
Daşınma üsulu ______________________________________________________________
Daxilolma məntəqəsi
_________________________________________________________
Məhsulun adı və miqdarı
_____________________________________________________
Bitkilərin botaniki adı
________________________________________________________

Bununla təsdiq edilir ki, yuxarıda qeyd edilən bitkilər, bitki mənşəli məhsullar və ya karantin nəzarətində olan digər materiallar müvafiq qaydalara uyğun müayinə və ya təhlil edilmiş və idxalatçı ölkə tərəfindən sadalanmış karantin tətbiq edilən zərərli orqanizmlərdən azad hesab olunur, həmçinin bunlar nizamlanan karantin tətbiq edilməyən zərərli orqanizmlərə də şamil edilməklə, idxalatçı ölkənin mövcud fitosanitar tələblərinə də cavab verirlər (təkrar ixraca münasibətdə yük ilkin və ya yenidən qablaşdırılmış konteynlərdə daşınmış, ixracatçı ölkənin fitosanitar sertifikatına və əlavə yoxlamaya əsasən idxal tələblərinə uyğun olmuş və saxlanma zamanı zərərli orqanizmlərlə yoluxma riski daşımamışdır).

Bu məhsullar praktik olaraq digər zərərli orqanizmlərdən azad hesab olunurlar.

## II. Əlavə deklarasiya

__________________________________________________________________________

## III. Zərərsizləşdirmə

Tarix ________ işləmə üsulu _____________ kimyəvi maddə (fəal tərkib)
_________
Ekspozisiya və temperatur
___________________________________________________
Qatılıq (konsentrasiya)
______________________________________________________
Əlavə məlumat ____________________________________________________________
Verilmə yeri
_________________________________________________________________

M.Y.

| | | |
|---|---|---|
| (Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin möhürü) | Dövlət fitosanitar müfəttişinin adı və soyadı | _____________________ |
| | Tarix _________ | _____________________<br>(imza) |

Bu Sertifikata görə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə, onun müfəttişlərinə və ya nümayəndələrinə heç bir maliyyə öhdəliyi tətbiq edilmir.

**MODEL PHYTOSANITARY CERTIFICATE (EXPORT AND RE-EXPORT)**

No. _______________

Plant Protection Organization of __________________________________________________

TO: Plant Protection Organization(s) of ___________________________________________

**I. Description of Consignment**

Name and address of exporter: ____________________________________________________

Declared name and address of consignee: ___________________________________________

Number and description of packages: ______________________________________________

Distinguishing marks: ____________________________________________________________

Place of origin: ___________________________________________________________________

Declared means of conveyance: ____________________________________________________

Declared point of entry: ___________________________________________________________

Name of produce and quantity declared: ____________________________________________

Botanical name of plants:__________________________________________________________

This is to certify that the plants, plant products or other regulated articles described herein have been inspected and/or tested according to appropriate official procedures and are considered to be free from the quarantine pests specified by the importing contracting party and to conform with the current phytosanitary requirements of the importing contracting party, including those for regulated non-quarantine pests (in the event of re-export It is also hereby certified that the consignment was transported in original or repackaged containers, complied with the import phytosanitary requirements based on the original phytosanitary certificate and additional inspection, and was not exposed to the risk of infestation by harmful organisms during storage)

They are deemed to be practically free from other pests.

**II. Additional Declaration**

______________________________________________________________________________

**III. Disinfestation and/or Disinfection Treatment**

Date_________________ treatment_____________ chemical (active ingredient) _________

Duration and temperature _________________________________________________________

Concentration_____________________________________________________________________

Additional information ____________________________________________________________

Place of issue ____________________________________________________________________

(Stamp of Organization)

Name and surname of authorized officer _____________

Date __________ ____________________
(signature)

**МОДЕЛЬ ФИТОСАНИТАРНОГО СЕРТИФИКАТА (ЭКСПОРТА И РЕЭКСПОРТА)**

№ _______________

Организация по карантину и защите растений ____________________________________
Кому: Организации (ям) по карантину и защите растений__________________________

**I. Описание груза**

Экспортер и его адрес ____________________________________________________________
Заявленный получатель и его адрес _______________________________________________
Количество мест и описание упаковки _____________________________________________
Отличительные знаки (маркировка) ________________________________________________
Место происхождения ______________________________________________________________
Заявленный способ транспортировки _______________________________________________
Заявленный пункт ввоза ___________________________________________________________
Наименование продукции и заявленное количество ________________________________
Ботаническое название ____________________________________________________________

Настоящим удостоверяется, что растения, растительные продукты или другие подкарантинные материалы, описанные выше, были обследованы и/или проанализированы, согласно соответствующим официальным процедурам, и признаны свободными от карантинных вредных организмов, перечисленных импортирующей договаривающейся стороной и отвечают действующим фитосанитарным требованиям импортирующей договаривающейся стороны, включая таковые и для регулируемых некарантинных вредных организмов (в случае осуществления реэкспорта настоящим подтверждается, что груз перевозился в оригинальных или повторно упакованных контейнерах, соответствовал фитосанитарным требованиям импортирующей стороны на основании оригинального фитосанитарного сертификата и дополнительного осмотра, а также не подвергался риску заражения вредными организмами во время хранения).

Они считаются практически свободными от других вредных организмов.

**II. Дополнительная декларация**

_________________________________________________________________________________

**III. Обеззараживание**

Дата _________способ обработки _________химикат (действующее вещество)_________
Экспозиция и температура _________________________________________________________
Концентрация _____________________________________________________________________
Дополнительная информация _______________________________________________________
Место выдачи _____________________________________________________________________

(печать организации)

Имя и фамилия уполномоченного инспектора ______

Дата __________ ______________________
(подпись)